**UOT 82**
**https://doi.org/10.59849/2218-4783.2025.1.201**

**GÜNEL ƏSGƏROVA**

# "MOLLA NƏSRƏDDİN" JURNALININ NƏŞRİNDƏ NAXÇIVAN ZİYALILARININ ROLU

*Böyük demokrat Cəlil Məmmədquluzadənin (1869-1932) qurucusu və ideya rəhbəri olduğu "Molla Nəsrəddin" ədəbi məktəbi Azərbaycan mətbuat tarixinin ən parlaq səhifələrindən birini təşkil edir. C.Məmmədquluzadə Ö.F.Nemanzadə, M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Q.Şərifzadə, Ə.Qəmküsar, M.S.Ordubadi kimi yazıçılar ilə birlikdə "Molla Nəsrəddin" (1906-1931) adlı qüdrətli mətbuat məktəbinin əsasını qoydu.*

*Mirzə Cəlil başda olmaqla mollanəsrəddinçilərin gərgin, ardıcıl, ədəbi mübarizəsində "Molla Nəsrəddin"i naxçıvanlı həmvətənləri tək qoymadılar. Həmin dövrdə naxçıvanlı müəlliflər "Molla Nəsrəddin"lə sıx əməkdaşlıq edir, jurnalın səhifələrində kəsərli yazılarla çıxış edirdilər. Xüsusi olaraq qeyd etməliyik ki, "Molla Nəsrəddin" jurnalının nəşrində və uzunömürlülüyünün təminində, Naxçıvanda geniş yayılıb tanınmasında, abunəçi yazılmasında naxçıvanlı müxbirlərin maddi və mənəvi baxımından böyük xidmətləri olmuşdur.*

*Məqalədə "Molla Nəsrəddin" jurnalının nəşrində naxçıvanlı müxbirlər, eləcə də onların jurnalın işindəki xidmətləri barədə məlumatlar öz əksini tapmışdır. Müəllif qeyd etmişdir ki, jurnalın nəşrində bütün həyatını, əməyini və zəhmətini əsirgəməyən Q.Şərifzadə, Ə.Qəmküsar, M.S.Ordubadi, M.Sidqi ilə yanaşı jurnalın abunə və satış işində Məmməd Axundov, Ağaməhəmməd Əkbərov (Ərbab), Məmmədəli Əsədullazadə, Əkbər Abbasov, Heydər İsmayılov və Naxçıvanın başqa qabaqcıl şəxsləri köməklik göstərmişlər.*

*Jurnalın nəşrinə Naxçıvan mühitinin və burada yaşayan naxçıvanlı müəlliflərin təsirindən bəhs edən müəllif belə qənaətə gəlmişdir ki, jurnalın Naxçıvan mühitində geniş oxucu kütləsi arasında yayılmasında, oxunmasında böyük dəstəyi olan Məmməd Axundov, Məmmədəli Əsədullazadə, Ağaməhəmməd Əkbərov (Ərbab), Seyid Səbri, Əkbər Abbasov və Heydər İsmayılovun xidmətlərinin tədqiqata cəlb olunması naxçıvanlı müxbir və yazarların "Molla Nəsrəddin"in nəşrindəki rolu haqqında indiyədək söylənilən fikir və mülahizələri bir qədər də dolğunlaşdırmağa əsas verir.*

**Açar sözlər:** *Cəlil Məmmədquluzadə, Azərbaycan mətbuatı, "Molla Nəsrəddin" jurnalı, "Şərq qapısı" qəzeti, Naxçıvan ədəbi mühiti, naxçıvanlı müxbirlər.*

**Giriş.** Böyük demokrat Cəlil Məmmədquluzadənin (1869-1932) yaratdığı, dərin demokratiya və azadlıq ideyaları təbliğ edən "Molla Nəsrəddin" jurnalı (1906-1931) Şərqdən Qərbə qədər geniş bir arealda yayılaraq böyük nüfuz və ümumxalq məhəbbəti qazanmışdır.

Ədəbi-ictimai fikrin, inqilabi-demokratik hərəkatın inkişafına qüvvətli təsir göstərən "Molla Nəsrəddin" jurnalının Yaxın və Orta Şərqdə, Rusiya, Avropa və Amerikanın bir sıra ölkələrində çoxmilyonlu oxucusu və abunəçiləri var idi. Özünün məşhur "Molla Nəsrəddin"i ilə yatmış Şərq xalqlarını oyatmağa çalışan C.Məmmədquluzadəni ictimai eybəcərliklərə qarşı mübarizəsində eyni fikir və ideya sahibi tərəqqipərvər ziyalı yoldaşları tək qoymadılar.

"Molla Nəsrəddin" mövzusuna müraciət edərkən, jurnal səhifələrində haqqında geniş yer verilən Naxçıvan mühiti və onun naxçıvanlı müxbirləri barədə danışmaq, onların əməyini xüsusi dəyərləndirmək gərəkdir.

"Molla Nəsrəddin"in nəşri yollarında, əməyini və zəhmətini əsirgəməyən Q.Şərifzadə, Ə.Qəmküsar, M.S.Ordubadi, M.Sidqi ilə yanaşı, jurnalın fəaliyyətində yaxından iştirak edən, Naxçıvanda və ətraf ərazilərdə geniş yayılıb oxunmasında, abunə işində və satılmasında köməklik göstərən müxbirlər sırasında Məmməd Axundov, Ağaməhəmməd Əkbərov (Ərbab), Məmmədəli Əsədullazadə, Əkbər Abbasov, Heydər İsmayılov və başqa şəxslərin adlarını qeyd edə bilərik.

**"Molla Nəsrəddin" jurnalının naxçıvanlı müxbirləri.** XX əsrin əvvəllərində Naxçıvanda maarif və mədəniyyətin inkişafında əzmkarlıqla mübarizə aparan, maddi-mənəvi yardımlarını əsirgəməyən demokratik ruhlu maarifçi-demokrat ziyalı, "Ərbab" ləqəbli Ağaməhəmməd Əkbərovun (1868-1962) xidmətləri unudulmazdır.

1868-ci ildə Naxçıvan şəhərində anadan olmuş Ağaməhəmməd Əkbərov haqqında ilkin məlumatlara “Molla Nəsrəddin” jurnalında [9, 1911, №34, s. 7], daha sonra professor Ə.Şərifin “Rojdenie Molla Nasreddina”, S.Səbrinin “Yaddaşımdan bir neçə söz”, filologiya elmləri doktoru F.Xəlilovun “Təhsilsiz maarifçi-demokrat”, filologiya üzrə fəlsəfə doktoru M.Quliyevin “Böyük şairimiz Mirzə Ələkbər Sabirin naxçıvanlı maarifçi dostlarından Ağaməhəmməd Əkbərov haqqında bir neçə söz” adlı tədqiqat əsərlərində rast gəlirik.

Apardığımız tədqiqat nəticəsində “Şərq qapısı” qəzetinin 1956-cı il 20 aprel tarixli 48-ci sayında A.Əkbərovun şəxsən özünün dərc etdirdiyi “Yoxsulların dostu” adlı məqaləsini aşkara çıxarmışıq. Həmin yazıdan öyrənirik ki, o zaman Naxçıvanda A.Əkbərovun zəngin kitab mağazası olmuşdur. Məşhur mağazaya “Füyuzat”, “Şəlalə”, “Zənbur”, o cümlədən 20 ədəd “Molla Nəsrəddin” jurnalı gəlirmiş və Mirzə Cəlilin yaxın dostu Ağaməhəmməd Ərbab öz dükanında məşhur jurnalın satılması və yayılmasına yaxından köməklik göstərmişdir. “Ərbab” xatirələrində Mirzə Cəlillə uşaqlıq dostu olduğu və “Molla Nəsrəddin”in nəşrinin Naxçıvanda necə qarşılandığı, barədə məlumat verərkən yazır ki: “Mən Mirzə Cəlillə uşaqlıqdan tanış idim. Bu tanışlıq daha sonra ikimiz arasında möhkəm dostluğa çevrildi. Mirzə Cəlil Tiflisdə yaşayıb jurnalı çıxararkən mənim Naxçıvanda balaca bir dükanım var idi. Mən bu dükanda o zaman çıxan müxtəlif kitabları, qəzet və jurnalları alıb satırdım. Bu jurnallar içərisində ən çox oxucusu olan jurnal “Molla Nəsrəddin” idi. Çoxları əvvəlcədən xahiş edirdilər ki, təzə nömrədən onlar üçün saxlayım. Xüsusilə jurnalda Naxçıvandan yazı gedəndə, şəkil çəkiləndə “Molla Nəsrəddin”in müştəriləri daha çox olurdu. “Molla Nəsrəddin”i varlılar da oxuyurdu, yoxsullar da”. Maarifçi və demokrat ruhlu bir insan olan “Ərbab”ın “kitab dükanın mahiyyəti iki məna, iki amal daşıyırdı. Bunlardan biri ailə dolanışığı, ikincisi isə o zamanın ziyalı və inqılabçılarının bir növ ziyarətgahı kimi sayılırdı” [12, s. 4].

Böyük ümid və inam hissilə Naxçıvanda “Molla Nəsrəddin” jurnalının satışı və geniş kütlə içərisində yaymaq işləri ilə məşğul olan Ağaməhəmməd üzləşdiyi çətinliklərə baxmayaraq, heç zaman geri addım atmamışdı: “Mən həmişə bu jurnalı rahat sata bilmirdim. Mirzə Cəlil Naxçıvanın varlılarına, ruhanilərə sataşanda mənim də başım ağrıyırdı. Şəhər jandarma idarəsinin adamları tez-tez dükanımı axtarırdılar, əllərinə keçən “Molla Nəsrəddin”i götürüb aparırdılar. Çox vaxt elə olurdu ki, nə jurnalları qaytarırdılar, nə də pulunu verirdilər. Beləliklə, dostum Mirzə Cəlil hesabına hərdən bir mən də cərimə çəkməli olurdum. Mən 1930-cu ilə qədər, yəni 24 il “Molla Nəsrəddin” jurnalının Naxçıvanda Mirzə Cəlilin dostları olan zəhmətkeşlər arasında yaymışam. Bu jurnalı satdığım zaman mənə nə qədər əziyyət veriblərsə mən bu əziyyətləri qəbul etmişəm. Çünki bilirdim ki, Mirzə Cəlilin özü də, onun çıxartdığı “Molla Nəsrəddin” də azərbaycanlıları elmə və mədəniyyətə çağırırdı”.

Sovet hakimiyyəti illərində dükanı əlindən alınan Ağaməhəmməd həyatının son illərinə kimi gözətçi işləməklə ailəsini dolandırmışdır. Xeyriyyəçi bir insan kimi də hörmət qazanmış naxçıvanlı maarifçi Ağaməhəmməd “Ərbab” 1962-ci ildə dünyasını dəyişmişdir.

Yuxarıda A.Əkbərov haqqında məlumatlara rast gəldiyimiz mənbələrdən biri də Naxçıvan mühitinin yetirmələrindən Seyid Səbri Əsədlinin (1896-1974) “Yaddaşımdan bir neçə söz” adlı məqaləsi olduğunu qeyd etmişdik. “Şərq qapısı” qəzetinin 1971-ci il 2 iyul tarixində dərc olunmuş bu məqalədə “Molla Nəsrəddin”in Naxçıvanda yayılması işində S.Səbrinin də şəxsən yardımları olduğunu öyrənirik. S.Səbrinin müasir dövr tədqiqatçısı F.Xəlilovun “Naxçıvanı öyrənən elmi cəmiyyət” (2005) və “Naxçıvan elmi, ədəbi və mədəni mühiti: tədqiqlər” (2019, II cild) adlı əsərlərində Səbrinin həyat yolu, yaradıcılıq istiqamətləri, mühiti ilə bağlı müfəssəl məlumatların əks olunduğu bu mənbələrdən öyrənirik ki, Səbri ailəsinə maddi yardım etmək üçün “məktəbdə oxuya-oxuya, həm də qəzet-jurnal satmaq işilə məşğul olurmuş” [5, s. 80]. S.Səbrinin “Yaddaşımdan bir neçə söz” adlı xatirəsində bu barədə məlumat verilir: “Mən ibtidai məktəbdə oxuduğum zaman “Ərbab”ın vasitəsilə dükana cəlb olunub buraya gələn qəzet və jurnalları xalq arasında yaymağa (satmağa) başlamışdım. Maddi vəziyyətim ağır olduğundan məcbur qalıb Naxçıvan sakini Ərbab Ağa Məmmədin verdiyi

qəzet və jurnalları satırdım və əməkhaqqı alırdım" [12, s. 4]. Səbri Ağaməmmədin dükanında çalışan zaman satılmaq üçün ona verilən qəzet-jurnal adlarının içərisində "Molla Nəsrəddin" jurnalının da adını qeyd etmişdir.

"Molla Nəsrəddin" jurnalının 1921-ci il tarixli 8-ci sayında dərc edilmiş "Təşəkkür" adlı yazıda adına rast gəldiyimiz jurnalın naxçıvanlı müxbirlərdən biri də Əkbər Abbas oğlu Abbasovdur (1897-1967). Həmin yazıda Əkbər Abbasov və Ordubadi Seyidovun Təbrizdə qafqazlı mühacirlərə göstərdikləri yardımlardan bəhs olunur.

1897-ci ildə Naxçıvan şəhərində yoxsul kəndli ailəsində doğulan Əkbər valideynlərinə maddi və mənəvi yardım etmək üçün erkən yaşda çalışmaq məcburiyyətində qalmışdır. Bu səbəblər Əkbəri təhsildən uzaqlaşdırmış və o, 1916-cı ildə Culfa-Təbriz dəmir yolunda fəhləlik etməyə başlamışdır. 1918-1920-ci illərdə Naxçıvan, Ordubad, Şərur-Dərələyəz, Zəngəzur qəzalarında və Qərbi Azərbaycanda azərbaycanlılara hücum edən təcavüzkarlara qarşı döyüşlərdə iştirak etmiş, daha sonra Naxçıvan hökuməti tərəfindən xüsusi tapşırıqla Təbrizə göndərilmişdir. Ona verilən tapşırığı müvəffəqiyyətlə yerinə yetirdikdən, sonra 1922-ci ildə Naxçıvana qayıdan Ə.Abbasov Naxçıvanda ticarət müvəkkili, sonra Şəhər Kommunal Trestinin müdiri, Maarif Komissarlığı və Həmkarlar İttifaqında bir sıra məsul vəzifələrdə çalışmaqla yanaşı, dövrü mətbuatda da müxtəlif gizli imzalarla ifşa xarakterli yazılarla çıxış etmişdir.

Ə.Abbasov haqqında ilk dəfə tarix elmləri doktoru Fəxrəddin Cəfərovun "Erməni vəhşiliyi" (2009) monoqrafiyasında, sonra filologiya elmləri doktoru Fərman Xəlilovun "Cəlil Məmmədquluzadənin kitablarına daxil edilməyən bir məktubu haqqında" (2015) araşdırmasında məlumat verilmişdir.

F.Xəlilov apardığı tədqiqat nəticəsində "həmin dövrdə Naxçıvanda Əkbər Abbasov adlı şəxsin yaşadığını və "Molla Nəsrəddin" jurnalının 1930-cu il tarixli 28-ci nömrəsində "Xəstə müdir" məqaləsinin sonuna qoyulan "Bisavad" imzasının "Şərq qapısı" qəzetinin müxbiri Əkbər Abbasova" aid ola biləcəyi ehtimalını irəli sürmüşdür. Məqalədə "Bisavad" dövlət məmurlarının xalqa laqeyd münasibətindən şikayətlənib bildirir ki: "Naxçıvan Firqə Komitəsinin təşkilat şöbə müdiri, milliyətcə erməni olan Danelyan 12 gündür ki, idarənin qapısını bağlayıb mənzilində istirahətlə məşğuldur" [4, s. 59]. Bu məqaləyə görə müəllifi məsuliyyətə almaq qərarı çıxarılmış və onun gerçək kimliyinin öyrənilməsinə cəhdlər olunsa da, "Şərq qapısı" qəzetinin müxbirləri M.Ə.Əsədullazadə, N.Əlizadə, K.Tağıyev, N.Hacılı, M.Ə.Seyidov və başqaları jurnalın redaktoru Cəlil Məmmədquluzadədən onun imzasını heç bir təşkilata verməməyi və gizlin saxlamağı xahiş etmişlər [4, s. 60].

"Bisavad" imzalı müxbirlə bağlı apardığımız tədqiqat, təhlil və müqayisələr nəticəsində yeni fakt və məlumatlar əldə etdikdən sonra bu imzanın Naxçıvanda yaşayan Əkbər Abbasov adlı şəxsə aid olması ehtimalını irəli sürmüşük.

F.Xəlilovun "Cəlil Məmmədquluzadənin kitablarına daxil edilməyən bir məktubu haqqında" (2015) araşdırması, yazıçı jurnalist M.Tarverdiyevin 1985-ci ildə F.Xəlilova ünvanladığı məktubdakı "Şərq qapsı"nda "Bisavad" imzasının Ə.Abbasova məxsusluğu haqqındakı məlumatı, "Molla Nəsrəddin" jurnalı və "Şərq qapısı" qəzetindəki yazıların dil, üslub və ideya baxımından oxşar olması bu imzanın Ə.Abbasova mənsubluğunu qeyd etməyə bizə əsas verir. Ə.Abbasov haqqında ilk dəfə geniş məlumat "525"-ci qəzetin 2024-cü il 16-17 yanvar tarixlərində dərc olunmuş "Molla Nəsrəddin" jurnalı və "Şərq qapısı" qəzetinin "Bisavad"ı adlı məqaləmizdə verilmişdir. Burada onun həyat yolu və müxbirlik fəaliyyətinə nəzər yetirilmişdir. Naxçıvanda maarif və mədəniyyətin tərəqqisində əlindən gələni əsirgəməyən Ə.Abbasov 1967-ci ildə 70 yaşında dünyasını dəyişmişdir.

Naxçıvanda "Molla Nəsrəddin" jurnalının yayılmasında və təbliğində ön sıralarda adı çəkilən qabaqcıl ziyalı "Şürbi" təxəllüslü Mirzə Cəlil Mirzəyevin (1874-1915) xidmətləri danılmazdır.

M.C.Şürbi 1874-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. O, ilk təhsilini Naxçıvanda almış, 1892-ci ildə İrəvan müəllimlər Seminariyasından məzun olduqdan sonra Naxçıvan, Şərur, Ordubad, Nehrəm və Şahbuzda pedaqoji fəaliyyətlə məşğul olmuşdur. Müəllimliklə yanaşı, bir sıra başqa vəzifələrdə, o cümlədən Naxçıvanda teatr tamaşalarının təşkilində yaxından iştirak etmişdir.

Naxçıvan ədəbi-mədəni mühitinin tanınmış simalarından olan M.C.Şürbi haqqında ilk dəfə M.Nəsirlinin "Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri" [10, s. 84] və M.S.Ordubadinin "Böyük ədiblə görüş" [11, s. 296] adlı əsərlərində rast gəlsək də, müstəqillik illərində Şürbi haqqında əhatəli və sistemli tədqiqat işi aparan akademik İ.Həbibbəyli [1, s. 216] və filologiya elmləri doktoru F.Xəlilovun [6, s. 208] araşdırmları nəticəsində yeni fakt və materiallar ortaya çıxarılmış, bəzi mübahisəli fikirlərə aydınlıq gətirilmişdir.

M.Mirzəyev "Şərqi-Rus", "Molla Nəsrəddin" kimi mətbu orqanlarda "Şürbi" təxəllüsü ilə gerilik və cəhaləti tənqid edən şeir və məqalələr dərc etdirmişdir. Filologiya elmləri doktoru F.Xəlilov isə M.C.Şürbinin əlyazma variantında olan 16 qəzəlini əldə etmiş [6, s. 209], həmin qəzəllərin təhlili əsasında ədibin bədii yaradıcılığının bəzi səciyyəvi keyfiyyətləri haqqında fikir və mülahizələrini irəli sürmüşdür.

M.C.Şürbi "Molla Nəsrəddin"in Naxçıvanda əsas müvəkkili olmuş, jurnalın Naxçıvan və ətraf ərazilərdə yayılmasında, abunə yazılışı və satışı işlərinin həyata keçirilməsində böyük köməyi olmuşdur. Şürbinin həyat və ədəbi fəaliyyətini tədqiqat obyektinə cəlb edən akademik İ.Həbibbəyli Şürbinin "Molla Nəsrəddin"lə əlaqəsinə dair bəzi faktların əks olunduğu məktubları ortaya çıxarmışdır. İ.Həbibbəylinin tədqiqatında ədibin jurnalla əməkdaşlıq edən zaman üzləşdiyi çətinliklərdən bəhs olunur: "Naxçıvan əhvalatlarından jurnalın redaksiyasına "yorğan böyüklükdə kağız" yazıb xəbərlər göndərməsi də onu şübhəli şəxslər sırasına düşməsinə səbəb olmuşdu. Belə çətinliklərə baxmayaraq, Şürbi yenə də imkan tapıb "bəzi böyük məsələlərdən" "Molla Nəsrəddin"ə xəbər və məlumatlar göndərmişdir" [1, s. 220].

Bu tədqiqatlardan bir daha aydın olur ki, Şürbi ictimai-ədəbi mühitində fəal mövqe tutmuş, mollanəsrəddinçilərlə yaxından əməkdaşlıq etmişdir. "Molla Nəsrəddin" jurnalının fəal yazar və müxbiri M.C.Şürbi 1915-ci il sentyabr ayının 4-də Naxçıvan şəhərində dünyasını dəyişmişdir.

Naxçıvanda baş verən hadisələrin, əhəmiyyətli xəbərlərin "Molla Nəsrəddin" redaksiyasına göndərilməsində "Azərbaycanın Naxçıvandakı mətbuat müvəkkili və "Şərq qapısı"nın ən fəal müxbiri Məmmədəli Əsədullazadə" [3, s. 58-59] jurnalın nəşrində yaxında iştirak etmiş, Naxçıvanda yayılıb oxunmasında fədakarlıq göstərmişdir. Naxçıvanda "Şərq qapısı" qəzetinin ilk müxbirlərindən olmuş M.Əsədullazadənin bu xidmətlərini "Molla Nəsrəddin" jurnalının 1930-cu il 7-ci sayında dərc olunmuş yazı təsdiqləyir: "Çağırış. "Molla Nəsrəddin" məcmuəsini geniş kütlə içərisinə, ələlxüsus qəza və dairə mərkəzindən uzaq kəndlərinə yaymaq məqsədilə üç ayda bir ilə qədər yüz nüsxə abunə (yüz nəfərə) toplayaraq aşağıdakı yoldaşları da dəvət edirəm: Gəncədən Abbas Rəcəblini, Qubadan Münəvvər Mirzəyevanı, Naxçıvandan Abbas Əliyevi, Culfadan Nevard Qriqoryanı. Naxçıvan mətbuat müvəkkili. M.Ə.Əsədullazadə" [9, 1930, №7, s. 7].

Professor İbrahim Mollayev "Şərq qapısı" qəzetinin 30 iyul 1965-ci il tarixli sayında dərc olunmuş "Molla Nəsrəddin"in Naxçıvan müxbirləri" adlı məqaləsində belə qeyd edir: "Molla Nəsrəddin"in "fəal müəlliflərindən biri də "Həna", "Dəngəsər" və "İ.H." imzaları ilə çıxış edən Heydər İsmayılov Naxçıvanlıdır". Apardığımız araşdırmalar nəticəsində İ.Mollayevin qeyd etdiyi imzalardan "Həna" və "İ.H." imzalarına rast gəlməsək də, jurnalın çar Rusiyası dövrünü əhatə edən bəzi nömrələrində yalnız "Dəngəsər" imzasını görmək mümkündür. Lakin "Dəngəsər" imzalı "Qara daşın revizorluğu" [9, 1911, №22, s. 6] məqaləsindən savayı digər məqalələrdə Naxçıvan və onun ətraf bölgələri haqqında heç bir məlumat verilmədiyindən həmin yazı və imzanın H.İsmayılova aid olub-olmadığını qəti söyləyə bilmərik. Onu da qeyd edək ki, Heydər İsmayılov haqqında hələlik əlimizdə kifayət qədər məlumat yoxdur.

H.İsmayılovun istifadə etdiyi digər imza da "Heydər Naxçıvanlı" imzasıdır ki, müəllif həmin imza ilə "Yeni fikir" (1926) qəzetində bir sıra yazılar dərc etdirmişdir [8, s. 227].

XX əsr Naxçıvanın ictimai-siyasi, ədəbi və mədəni həyatında mühüm yer tutan görkəmli şəxsiyyətlərindən biridə inqılabçı-demokrat Əli Səbri Qasımov (1892-1983) olmuşdur. O, 1892-ci il 15 aprel tarixində Naxçıvan şəhərində anadan olmuşdur. Əli Səbri yoxsul və təhsilsiz bir ailədə do-

ğulsa da, elmlərə olan marağı onu təhsil almağa, savadlanmağa sövq etmişdi. İlk təhsilini M.T.Sidqinin "Məktəbi-tərbiyə"sində alan Səbri xatirələrində bu işdə Qurbanəli Şərifzadənin böyük köməyi olduğunu vurğulamışdır.

Naxçıvan ədəbi-mədəni mühitində çoxşaxəli ədəbi fəaliyyəti ilə özünəməxsus mövqe tutan Ə.S.Qasımov ədəbiyyat və mətbuatın inkişafına öz töhfələrini verən yaradıcı ziyalılardandır. Xalqın sosial-mədəni inkişafında mətbuatın rolunu xüsusi qiymətləndirən Ə.S.Qasımov vaxtilə mətbuat orqanlarının fəaliyyətində yaranan çətinliklərə də öz mövqeyini bildirməkdən çəkinməmişdi. Azərbaycan mətbuatının, o cümlədən "Molla Nəsrəddin" jurnalının fəaliyyətini yaxından izləmiş, üzləşdiyi problemlərə biganə qalmamışdır. Mətbu orqanların inkişafına qayğı ilə yanaşan Səbri "Molla Nəsrəddin"in fəaliyyətində də yaranan problemləri "Himmət lazımdır" məqaləsində diqqətə çatdırmışdır: "Molla Nəsrəddin" jurnalı kimi dərdimizə ağlayan bir məcmuənin nə günlər keçirdiyindən bəhs olunursa, bu barədə bir çox söylənəcək sözlər meydana gəlir. "Molla Nəsrəddin" təki bir jurnal başqa millətlər içində necə intişar olunur, necə meydan alır, hər bir oxucularımıza məlumdur. Bu kimi jurnallar ilə millət iftixar edir" [7, s. 6].

Dövrünün bir çox mətbu orqanlarında "Dəqyanus", "Taqiyanuszadə", "Yalançı", "Ə.Qasımov", "Əli Səbri" [8, s. 204] kimi gizli və açıq imzalarla satirik yazılar dərc etdirən Ə.S.Qasımovun "Molla Nəsrəddin" jurnalından da bu imzalarına rast gələ biləcəyimizi düşündüyümüzdən müəyyən axtarışlar apardıq və tədqiqat nəticəsində jurnalın 19 mart tarixli 12-ci sayında "Yalançı" imzası ilə çap olunmuş Naxçıvan həyatından bəhs edən "Dağyanus şəhərindən" adlı yazıdan savayı heç bir yazı və imzaya rast gəlmədik [9, 1927, №12, s. 6].

Əli Səbri haqqında geniş məlumat ədibin keçdiyi şərəfli ömür və sənət yolu, ədəbi fəaliyyəti, zəngin yaradıcılığı, bir çox əsərləri ilk dəfə mərhum professor Hüseyn Həşimli tərəfindən tədqiqata cəlb olunmuşdur. Alim vaxtilə "Molla Nəsrəddin" jurnalında Ə.Qəmküsarın "Sarsaqqulubəy" imzası ilə dərc olunan "Əliyüngüllük" adlı felyetonunda Orucovları tənqid hədəfi alarkən, gənc yazar Ə.Səbri və Ələkbər Abbasovun ədəbi fəaliyyətinə kinayəli və birtərəfli yanaşıldığını qeyd etmiş və bu yanaşmanı heç cür təqdir etmədiyini vurğulamışdır. "Molla Nəsrəddin" jurnalının 5 aprel tarixli 11-ci sayında gedən həmin felyetonda yazırdı: "Qori seminariyasının şagirdləri Əli Səbri və Ələkbər kimi gündə bir kitab yazıb və ya qraf Tolostoyun əsərlərinin birini gündə tərcümə eləyib göndərə Orucovların çapxanasına, çünki onlar çox kasıb düşüblər, ucuz-ucuz çap eləyib satdıralar ki, bəlkə, çörək pulları çıxsın" [9, 1913, №11, s. 6].

Q.Məmmədli, E.Qasımova və A.Əliyevanın "İmzalar" kitabına və başqa mənbələrə əsaslanıb deyə bilərik ki, Əli Səbri Qasımov "Yeni İrşad", "Açıq söz", "Məlumat", "Sovqat", "Maarif işçisi" kimi müxtəlif mətbuat orqanlarında "Daqyanuszadə", "Taqiyanuszadə", "Yalançı", "Yemutelli", "Naxçıvanlı Ə.", "Dəqyanus", "Ə.Cəlil oğlu", "Simnarist Ə.", "Kürdoğlu" [8, s. 204] və başqa imzalarla çıxış etmişdir. Göründüyü kimi bu mənbələrdə Ə.S.Qasımovun "Daqyanuszadə", "Taqiyanuszadə" imzası ilə "Molla Nəsrəddin"də yazılar dərc etdirdiyi yazılsa da, bu məlumatların jurnalın hansı tarixli nömrəsində dərc edildiyi göstərilməmişdir. Tədqiqat göstərir ki, Ə.S.Qasımov o illərin müxtəlif mətbu orqanlarında qeyd edilən imzalarla əsərlər dərc etdirsə də, "Molla Nəsrəddin" jurnalında bu imzalara təsadüf etmədik.

**"Molla Nəsrəddin" jurnalının ordubadlı müxbiri.** "Molla Nəsrəddin"lə əməkdaşlıq edənlər arasında, abunə yazılışı və yayılması işlərində jurnalın ordubadlı müxbirləri də fəallıq göstərirdilər. Bu işlərdə əməyi keçmiş jurnalın Ordubaddakı mətbuat müvəkkili Məmməd Axundovun (1901-1996) xidmətləri diqqətəlayiqdir.

Kimdir Məmməd Axundov?

M.Axundov 1901-ci ildə Ordubadda ziyalı-ruhani Hacı Nifti Lütvüllanın ailəsində anadan olmuşdur. İlk təhsilini atasından alan Məmməd, daha sonra yeni tipli məktəblərdə təhsilini davam etdirmişdir. Gənc yaşlardan ədəbiyyata marağı olan Məmmədin şeirləri müxtəlif qəzet və jurnallarda

dərc olunmuşdur. M.Axundov hələ gənc yaşlardan "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmiş, jurnal səhifələrində müxtəlif gizli imzalarla yazılar dərc etdirmişdir.

Abbas Seyid 15 aprel 2011-ci il tarixdə "Şərq qapısı" qəzetində dərc etdirdiyi "Ordubadlı mollanəsrəddinçi" adlı yazısında qeyd edir ki: "Bir müddət Ordubadda "Molla Nəsrəddin"in müvəkkili olmuş Məmməd Axundovun jurnalda "Xoruz" və "Lam" imzaları ilə "Keçənlər", "Dəfn mərasimi", "Şəriət adamı", "Ağ Seyidin tabutu" və s. məktub və məqalələri dərc edilmişdir".

Apardığımız araşdırmalar nəticəsində A.Seyidin qeyd etdiyi məqalələrə rast gəlməsək də, jurnalın sovet dövrünü əhatə edən bəzi nömrələrində yalnız "Xoruz" və "Lam-cim" imzaları ilə Ordubadın iqtisadi vəziyyətindən, sosial-mədəni həyatındakı problemlərdən xəbər verən müxtəlif yazıları görmək mümkündür. Lakin bu imza ilə verilən yazıların hamısını M.Axundova aid etmək düzgün olmazdı. M.Axundov daha çox satirik üslubda, duzlu-məzəli yazılar ilə çıxış etdiyindən müqayisə apardığımız "Xoruz", "Lam-cim", "Vahid" imzalı, əsasən də "Ağ Seyidin oğulları" və "Şeyx Qafarı" tənqid hədəfi aldığı bəzi "Ordubaddan təzə xəbər", "Sağ olsun komitə", "Qara xəbər", "Ordubad yalançıları", "Ordubaddan müttəhid iclas" məqalələrin dil, üslub və ideya baxımından oxşar olması, xüsusən də Ordubadda dini fanatizmin, yalançı din xadimlərinin, mollaların ifşası ön planda olduğundan bu yazıların M.Axundova aid ola biləcəyini düşünsək də, hələlik əlimizdə kifayət qədər tutarlı məlumat olmadığından qəti fikir söyləyə bilmərik. 1941-1945-ci illərdə Vətən müharibəsində iştirak edən M.Axundov Ordubada geri qayıtmış, rayonda müxtəlif vəzifələrdə çalışmışdır. Ömrünün sonunadək ədəbi yaradıcılıqla məşğul olan ordubadlı mollanəsrəddinçi 1996-cı ildə 95 yaşında Ordubadda vəfat etmişdir.

**Nəticə.** Nəticə olaraq onu deyə bilərik ki, "Molla Nəsrəddin"in 25 illik nəşri dövründə naxçıvanlı müxbirlər jurnalın əsas aparıcı qüvvəsi olmuş, jurnalın həm müxbiri, həm redaktoru kimi "Molla Nəsrəddin" ədəbi cəbhəsinin daha geniş vüsət almasında, ədəbi məzmunun, ideya mübarizəsinin güclənməsində və jurnalın uzunmüddətli nəşrində böyük rol oynamışdılar. Naxçıvanın qabaqcılfikirli ziyalılarının "Molla Nəsrəddin"lə sıx əlaqədə olması Naxçıvan və onun ətraf bölgələrinin həm sosial-iqtisadi vəziyyətinin, həm də siyasi-mədəni həyatının jurnalda geniş şəkildə işıqlandırılmasında xüsusi əhəmiyyəti olmuşdur.

## ƏDƏBİYYAT

1. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühit və müasirləri (təkmilləşdirilmiş ikinci nəşri). Naxçıvan: Əcəmi, 2009, 424 s.
2. Həşimli H. Əli Səbri Qasımov: ömür yolu və yaradıcılığı. Naxçıvan: Əcəmi, 2020, 232 s.
3. Xəlilov F. "Molla Nəsrəddin" və "Şərq qapısı" / Xəlilov F."Şərq qapısı" qəzetinin nəşri tarixinin ilk mərhələsi və yeni ədəbi mühitin formalaşmasında rolu. Naxçıvan: Əcəmi, 2022, s. 51-61.
4. Xəlilov F. Cəlil Məmmədquluzadənin kitablarına daxil edilməyən bir məktubu haqqında / Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. Birinci kitab, Naxçıvan: Əcəmi, 2017, s. 59-64
5. Xəlilov F. Cəlil Məmmədquluzadənin kitablarına daxil edilməyən bir məktubu haqqında / Xəlilov F. Naxçıvanın elmi, ədəbi və mədəni mühiti: tədqiqlər. İkinci kitab, Naxçıvan: Əcəmi, 2019, s. 76-86.
6. Xəlilov F. Mirzə Cəlil Şürbinin bəzi qəzəllərinin əlyazma variantları // AMEA Naxçıvan Bölməsinin Elmi əsərləri, Naxçıvan: Tusi, 2024, s. 208-213.
7. Qasımov Ə.S. Himmət lazımdır. "İqbal" qəz., 1913, №520, 4 dekabr.
8. Məmmədli Q., Əliyeva A. İmzalar. Bakı: Letterpress, 2015, 312 s.
9. "Molla Nəsrəddin" jurnalı.
10. Nəsirli M. Mirzə Cəlil Şürbi / Cəlil Məmmədquluzadənin naxçıvanlı müasirləri. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, s. 84-90.

11. Ordubadi M.S. Böyük ədiblə görüş / Ordubadi M.S. Əsərləri: 8 cilddə. VIII c., Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1967, s. 296-300.
12. Səbri S. Yaddaşımdan bir neçə söz. "Şərq qapısı" qəz., 1971, 2 iyul.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: gunalasgar1987@gmail.com***

**Günel Asgarova**

**THE ROLE OF NAKHCHIVAN INTELLECTUALS IN THE PUBLICATION OF THE "MOLLA NASREDDIN" MAGAZINE**

The "Molla Nasreddin" literary school, founded and led by the great democrat Jalil Mammadguluzadeh (1869-1932), constitutes one of the brightest pages in the history of the Azerbaijani press. J. Mammadguluzadeh, together with writers such as O.F. Nemanzadeh, M.A. Sabir, A. Hagverdiyev, A. Nazmi, G. Sharifzadeh, A. Qamkusar, and M.S. Ordubadi, founded the powerful press school called "Molla Nasreddin" (1906-1931).

Compatriots from Nakhchivan did not leave "Molla Nasreddin" alone in the intense, consistent and literary struggle of mollanasreddinists led by Mirza Jalil. At that time, the magazine's Nakhchivan authors collaborated closely with "Molla Nasreddin" and published incisive articles in the magazine. We should especially note that Nakhchivan correspondents have made great contributions, both materially and morally, in publishing and ensuring the longevity of the "Molla Nasreddin" magazine, in its wide distribution and recognition in Nakhchivan, and in attracting subscribers.

The article reflects information about the Nakhchivan correspondents in the publication of the "Molla Nasreddin" magazine, as well as their services to the magazine's work.

Speaking about the influence of Nakhchivan milieu and Nakhchivan authors living here, the author came to the conclusion that, involving the services of Mammad Akhundov, Mammadali Asadullazadeh, Agamahammad Akbarov (Arbab), Seyid Sabri, Akbar Abbasov and Heydar Ismayilov, who greatly supported the magazine's distribution and reading among a wide audience in the Nakhchivan environment in the research provides a basis for somewhat supplementing the ideas and considerations expressed so far about the role of Nakhchivan correspondents and writers in the publication of "Molla Nasreddin".

**Keywords:** *Jalil Mammadguluzadeh, Azerbaijani press, "Molla Nasreddin" magazine, "Sharq Qapisi" newspaper, Nakhchivan literary milieu, Nakhchivan correspondents.*

**Гюнель Аскерова**

**РОЛЬ НАХЧЫВАНСКОЙ ИНТЕЛЛИГЕНЦИИ В ИЗДАНИИ ЖУРНАЛА "МОЛЛА НАСРЕДДИН"**

Литературная школа "Молла Насреддин", основателем и идейным руководителем которой являлся великий демократ Джалил Мамедкулизаде (1869-1932), составляет одну из самых ярких страниц истории азербайджанской печати. Дж.Мамедкулизаде вместе с такими писателями, как О.Ф.Неманзаде, М.А.Сабир, А.Хагвердиев, А.Назми, Г.Шарифзаде, О.Гемкусар, М.С.Ордубади, основал сильную школу журналистики журналистики под эгидой издательства журнала "Молла Насреддин" (1906-1931).

Соотечественники из Нахчывана не оставили редакцию журнала «Молла Насреддин» в одиночестве в ходе напряженной, последовательной, литературной борьбы молланасреддинцев, возглавляемой Мирзой Джалилем. В то время авторы журнала из Нахчывана тесно сотрудничали с «Моллой Насреддином» и публиковали на страницах журнала короткие статьи. Особо следует отметить, что нахчыванские корреспонденты внесли большой материальный и моральный вклад в издание и обеспечение долголетия журнала «Молла Насреддин», в его широкую известность в Нахчыване, в набор подписчиков.

В статье отражена информация о нахчыванских корреспондентах в издании журнала "Молла Насреддин", а также их заслугах в работе журнала.

Говоря о влиянии на издание журнала нахчыванской среды и проживающих здесь нахчыванских авторов, автор пришел к выводу, что привлечение к исследованиям заслуг Мамеда Ахундова, Мамедали Асадуллазаде, Агамагомеда Акперова (Арбаб), Сеида Сабри, Акпера Аббасова и Гейдара Исмаилова в распространении и чтении журнала среди широких масс читателей в Нахчыване, дает основание для некоторого дополнения высказанных до сих пор мнений и соображений о роли нахчыванских корреспондентов и писателей в издании "Моллы Насреддина".

**Ключевые слова:** *Джалил Мамедкулизаде, азербайджанская пресса, журнал "Молла Насреддин", газета "Шарг Гапысы", литературная среда Нахчывана, нахчыванские корреспонденты.*

*(Filologiya elmləri doktoru Fərman Xəlilov tərəfindən təqdim edilmişdir)*

**Daxil olma: İlkin variant 17.03.2025**
**Son variant 14.04.2025**